**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

---

**Əlyazması hüququnda**

**AXUNDOV PİRİ FƏRHAD OĞLU**

# XX ƏSRDƏ İSLAMDA İSLAHATÇILIQ MEYİLLƏRİ (AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN TİMSALINDA)

**İxtisas: 7214.01 – Dinin tarixi və fəlsəfəsi**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2018**

**Dissertasiya işi AMEA-nın Fəlsəfə İnstitunun "Mədəniyyətşünaslıq və dinşünaslıq" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Aydın Arif oğlu Əlizadə**
fəlsəfə üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **RafiqYəhya oğlu Əliyev**
fəlsəfə üzrə elmlər dok., professor

**Məmmədəli Allahverdi oğlu Babaşlı**
ilahiyyət üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Sosial--siyasi elmlər" kafedrası**

Müdafiə "__" ___ 2018-ci il tarixdə saat __ -da Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəzdindəki Birdəfəlik İxtisaslaşdırılmış Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı, Az.1001, İstiqlaliyyət küç., 26. AMEA Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" fevral 2018-ci ildə göndərilmişdir.

**Birdəfəlik Müdafiyə Şurasının**
**elmi katibi, fəls.ü.e. d., dosent** **Z.A.ƏBİLOVA**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə İslam dünyasında islahat və ya reforma prosesləri ilə bağlı aparılan tədqiqatlarda adətən islamda islahatçılıq meyillərinin XIX əsrdən başladığı bildirilir və onun ilk nümayəndələrindən biri kimi Seyid Əhməd Xanın adı çəkilir. Sonrakı yerdə Cəmaləddin Əfqani, Məhəmməd Abduh, Rəşid Rza üçlüyünün çalışmaları tədqiq edilir. Bundan sonra İvvan-ı Müslimin Hərəkatına, Həsən əl-Bənna, Seyid Qutub, Mevdudi kimi alimlərin fikirlərinə istinad edilir. Şübhəsiz ki, aparılan araşdırmalarda XX əsrin sonları və XXI əsrin əvvəllərində İslamda islahatçılıq meylləri ilə bağlı tədqiqatlara daha geniş yer ayrılır.

Tarix boyu din və məzhəb zəminində xalqlar arasında günahsız insanların ölümünə səbəb olmuş çox saylı müharibələr baş vermişdir. Onlar, əsasən cəmiyyətdə dini dözümsüzlük və təəssübkeşlik hisslərinin baş qaldırması nəticəsində meydana gəlmiş və qarşısıalınmaz prosesə çevıilmişdir. Bu gün də dünyanın bir sıra ölkələrində bu təhlükə qalmaqdadır.

Mehribanlıq, səmimiyyət və qarşılıqlı sevgi kimi ülvi dəyərləri yaymaq məqsədilə bəşəriyyətə göndərilən dinlərdən bəzən insanlar arasında qarşıdurma yaratmaq məqsədilə istifadə olunmuşdur. Mənsub olduğu dindən başqa heç bir dini qəbul etməyən insanlar digər dinlərə qarşı səlib yürüşü elan etmiş və nəticədə günahsız insanların qanı axıdılmış, bir çox ibadət evləri dağıdılmışdır.

Azərbaycana gəldikdə isə qeyd etmək lazımdır ki, ölkəmiz tarixən milli və dini baxımdan tolerant bir ölkə olmuşdur. Bunu həm tarixi mənbələr, həm də müxtəlif vaxtlarda ölkəmizə gələn xarici qonaqlar təsdiq etmiş və bugün etməkdədirlər. Azərbaycanda tarixən çoxsaylı xalqların və müxtəlif dinlərin nümayəndələrinin birlikdə yaşamasına baxmayaraq, heç vaxt bu ərazidə milli ayrı-seçkilik və dini zəmində qarşıdurma olmamışdır.

Respublikamız müstəqillik qazandığı ilk dövrlərdən dini ənənələrimizin bərpası və möhkəmləndirilməsi Azərbaycan dövlətinin din siyasəti qarşısında duran əsas vəzifələrdən biri olmuşdur. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Ümummilli lider



Heydər Əliyevin Azərbaycançılıq konsepsiyasına uyğun olaraq ölkədə dövlət-din münasibətlərinin, millətlərarası və dinlərarası dialoqun genişlənməsi üçün əlverişli şərait yaranmış, bu sahədə beynəlxalq hüquq normalarına uyğun qanunvericilik bazası bərqərar olmuşdur. Bu sahədə H.Əliyev tərəfindən yaradılmış müdrik siyasi-mənəvi xətt Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam və inkişaf etdirilir.

Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycanda dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin hüquqi müstəvidə tənzimlənməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası dini etiqad azadlığını, dövlət-din münasibətlərini yüksək səviyyədə təmin etmişdir. Dinin dövlətdən ayrı olması, bütün dini etiqadların qanun qarşısında bərabər sayılması, insan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd dinlərin yayılmasının və təbliğinin qadağan olması barədə müddəalar həmin sənəddə əksini tapmışdır. Eyni zamanda həmin sənəddə hər kəsin fikir və söz azadlığı, dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibətilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ bəyan edilmişdir.

Dinin zamanın və məkanın şərtlərinə uyğun olaraq yenidən inşa edilməsinə dayanan fikirlər, dinin tarix içində təzahür edən təşkilati strukturu ilə bağlı lokal və milli baxışlar təhlilə cəld edilmişdir.

Müasir dövrdə müsəlmanların qarşılaşdıqları ən ciddi problemlərdən biri, müasirləşmə və bir sıra məsələlərdə Qərb dünyası ilə ciddi münaqişə içində olmasıdır. Müsəlman dünyası öz dini dünyagörüşünün məshulu olan İslam düşüncəsi ilə üst-üstə düşən həyat tərzi yaşamaqda və bu həyat tərzini əsaslı şəkildə mühafizə etməkdədir. Müsəlman dünyasında baş verən müasirləşmə prosesində İslam düşüncəsinin harada və hansı şəkildə olacağı, necə təkamül edəcəyi məsələsi son dövrün müzakirələrində əhəmiyyətli yer tutur.

Son beş əsrdə elmin sürətlə inkişaf etməsi onun bir müddət sonra cəmiyyətdə dinin təsirini zəiflədəcəyini göstərirdi. Ancaq bu

dünyəviləşmə prosesinə bərabər olaraq, XIX əsrin sonu-XX əsrin əvvəllərində dünyada dinin təsirinin artması və İslam dünyasında islamçılığın yüksəlməsi müşahidə olundu. Dünyada bu prosesin yayılması bir çox elm sahəsinin diqqətini məsələnin araşdırılmasına istiqamətləndirdi.

**Problemin öyrənilmə vəziyyəti.** Araşdırılan problem özünün müasir dövr üçün aktuallıq və işlənmə dərəcəsinə görə digər fəlsəfi problemlərdən əsaslı şəkildə fərqlənir. Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı münasibətlərinin başlanmasından indiyədək filosoflar, tarixçilər, politoqlar, ilahiyyatçılar bu mövzuya xüsusi diqqət yetirmişlər. Lakin mövzunun aktuallığı hər dövrdə eyni səviyyədə olmamışdır. Xüsusilə, XIX əsrin sonları və XX əsrin əvvəllərində demək olar ki, bütün İslam dünyasını və alimlərini dində yenilənmə və modernləşmə məsələsi ciddi şəkildə maraqlandırmışdır. Cəmaləddin Əfqani, Məhəmmməd Abdu, Məhəmmməd İqbal, Rəşid Rza əl-Hüseyni, Seyid Qütb və başqa müəllifləri öz əsərlərində islamda yenilənmə ilə bağlı müxtəlif yanaşmalar, fərqli metodologiyalar əsasında orijinal konsepsiyalar formalaşdırmışlar. Həmin əsərlərdə qiymətli və orijinal ideyalar irəli sürülür. Xüsusən də XIX əsrin sonunda, XX əsrin əvvəllərində və sonlarında dünyada baş verən sosial-siyasi, iqtisadi və s. proseslər İslam dünyasının inkişafı probleminin təhlilini zərurətə çevirdiyindən bir sıra yeni tədqiqatlarda meydana çıxarmışdır.

Avropalı və amerikan tədqiqatçıları son dövrlərdə İslam və yenilənmə məsələləri ilə bağlı ciddi tədqiqatlar aparır, xüsusilə, Xristianlıqda baş verən islahatçılıq proseslərinin İslam dininə tətbiqi məsələlərini öyrənməyə çalışırlar. Bu tədqiqatlar arasında D.F.Eickelmanın (1998) "Inside the Islamic Reformation", 2004-cü ildə nəşr olunan "Who Speaks for Islam?" An Islamic Reformation əsərləri, M.Faourun (2005) "The Arab World After Desert Storm" əsəri, C.Kurzman və M.Broversin (2004) "An Islamic Reformation?" əsəri və s. əsas yer tutur.

Mövzunun araşdırılmasına İslam dünyasında və xüsusilə də Türkiyə və Azərbaycanda xüsusi maraq yaranmışdır. Son dövrlərdə



Türkiyədə bu sahə ilə elmi tədqiqat işləri, elmi maqalələr və elmi konfransların sayı xeyli artmışdır. N. Abu Zaydın (2006) "Reformation of Islamic Thought: A Critical Historical Analysis" əsəri, A.R.Abootalebinin (2000) "Islam and Democracy" əsəri, İ. Xətiboğlunun (2004) "İslam dünyasının çağdaşlaşma prosesi" əsəri, İ. Qaranın (1997) "Türkiyədə islamçılıq düşüncəsi" əsəri və s. bu sahədə aparılan ciddi tədqiqatlardan nümunələr hesab oluna bilər.

Azərbaycanda bu problemin elmi-ədəbi aspektdən araşdırılması Mirzə Fətəli Axundovun adı ilə bağlıdır. Axundov bu sahədə həm elmi, həm ədəbi, həm də praktik cəhətdən böyük səy göstərmişdir. Bu sahədə Əhməd bəy Ağayevin, Əli bəy Hüseynzadənin elmi-fəlsəfi çalışmaları diqqəti cəlb edir.

Akademik R.Mehdiyevin konseptual xarakterli kitab və məqalələrində də müasir Azərbaycan cəmiyyətinin inkişafı və bu inkişafın strateji istiqamətləri müəyyənləşdirilmişdir. Onların sırasında ölkəmizin keçdiyi inkişaf yolunun ümumiləşdirilməsi və qazandığı yüksək nailiyyətlərin təhlili mühüm yer tutur. Bu kontekstdə din-dövlət münasibətlərinin xarakteri və tənzimlənməsi, cəmiyyətimizdə dini tolerantlığın möhkəmlənməsi, dinlərarası əməkdaşlığın Azərbaycan modelinin nəzəri əsasları və konseptual müddəaları müəyyən edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifəsi.** Din, sosial reallıqdır və hər bir sosial reallıq istər-istəməz sosial struktura, mədəniyyətə, siyasi sferaya öz təsirini göstərir. Dini əqidə və bu əqidənin strukturu ilə siyasət və iqtisadi inkişaf arasında çox açıq və güçlü münasibət mövcuddur.

Yuxarıda qeyd edilənlər çərçivəsində dində yenilənmə prosesinin əsas xüsusiyyətlərini elmi-nəzəri və elmi-praktik cəhətdən müəyyənləşdirmək və həmin məsələnin Azərbaycanda və Türkiyədə hansı istiqamətdə aparıldığını tədqiq etməkdir. Bu məqsədlə aşağıda qeyd edilən hipotez və müddəaların tədqiqi işin əsas vəzifələri arasında yer alır:

-İslahatçılıq, reformizm və yenilənmə anlayışlarının mahiyyətini izah etmək;

- Dində yenilənmə, islahatçılıq və reform proseslərinin mahiyyət

etibarilə fərqli xüsusiyyətlərini açıqlamaq;

- Qərbdə yaranan dini islahatçılıq nəzəriyyəsinin mahiyyətini, yığcam elmi mənzərəsini vermək, onun İslamda yenilənmə nəzəriyyələrinə təsirini müəyyən etmək;
- Dində islahatçılıq və yenilənmə prosesinin Quran və sünnə baxımından təhlili, fiqh və islam təfəkkürü meyarı vasitəsilə onun mötəbərlik səviyyəsinin müəyyən edilməsi;
- vəhy və dini təcrübə arasında təzad;
- dini ehkamların dini islahatçılıq ilə münasibəti;
- Türkiyədə dünyəvi dövlət quruculuğunun dini islahatçılıq prosesinin inkişafında rolunun müəyyənləşdirilməsi;
- Türkiyədə dini cərəyanların dini yenilənməyə başıxlarının təsbit edilməsi:
- Sovet dövründə Azərbaycanda din və dövlət münasibətlərinin müəyyənləşdirilməsi;
- Müstəqilliyin ilk dövründə Azərbaycanda dini sferanın vəziyyəti və dövlətin dinə münasibəti;
- Ulu öndər Heydər Əliyevin din və dövlət münasibətlərinin tənzimlənməsində rolu;
- Azərbaycanda dini yenilənmə prosesi və dini tolerantlıq.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiya işinin obyektini İslam dinində yenilənmə prosesləri və təşəbbüsləri, bu məqsədlə aparılan elmi-nəzəri tədqiqatlar təşkil edir. Tədqiqatın predmetini isə XX əsrdə Türkiyə və Azərbaycanda həyata keçirilən dində yenilənmə prosesləri və təşəbbüsləri təşkil edir.

**Tədqiqatın informasiya bazası və metodoloji əsasları**. Dissertasiya işinin informasiya bazasının əsasını yerli və xarici elmi əsərlər, bu sahədə yazılmış yerli və xarici tədqiqatçıların tədqiqat işləri, tarixi mənbələr, Quran və hədislər, dini əsərlər, Azərbaycan Respublikası Prezidentinin fərmanları, çıxışları, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Qafqaz Müsəlmanları İdarəsinin, Türkiyə Diyanət İşləri Başqanlığının elektron-məlumat bazası, müxtəlif beynəlxalq təşkilatların dövri nəşrləri, həmçinin yerli və xarici elmi jurnalların və qəzetlərin məlumatları təşkil edir.



Tədqiqatın metodoloji bazasını humanitar elmlərdə nəzəri və empirik tədqiqatlar zamanı istifadə olunan elmi tədqiqat metodlarının geniş spektri və problemin tədqiqində elmi abstraksiya, tarixi və məntiqi əlaqə, induksiya, deduksiya, analiz və sintez metodları, hadisələri inkişafda götürən, onun daxili hərəkətverici qüvvələrini aşkara çıxartmağa, bütün hadisələri qarşılıqlı əlaqədə öyrənməyə çalışan dialektik metoddan istifadə edilmiş, faktlar yığılıb ümumiləşdirilmiş, onların arasında qanunauyğun və təsadüfi əlaqələr müəyyənləşdirilmiş, xarakterik əlamətlər ortaya qoyulmuşdur.

**Dissertasiya işinin elmi yeniliyi**. Mövzunun yeniliyi ondadır ki, adıçəkilən tədqiqat işi ölkəmizdə ilk dəfə elmi cəhətdən, sistemli və hərtərəfli təhlil edilmişdir. Burada XX əsrdə dində yenilənmə meylləri məsələsi Türkiyə və Azərbaycanın timsalında ilk dəfə olaraq araşdırılmış, bu mövzuda hər iki ölkə üçün ortaq olan cəhətlər təsbit edilmiş və onları bir-birindən fərqləndirən xüsusiyyətlər aşkar edilmişdir.

Tədqiqat işindən çıxarılan mühüm və yeni nəticələrdən biri də odur ki, dində yenilənmə meyllərinin böyük əksəriyyəti dini olmaqla yanaşı, həm də dünyəvi xarakter daşıyır.

Tədqiqatın başqa bir elmi yeniliyi bu vaxta qədər az öyrənilmiş, mübahisəli məsələlərin qoyuluşu və onların həllinə yeni yanaşma ilə bağlıdır və aşağıdakı əsas məqamları müəyyən edir:

- işdə nəzərdən keçirilən məsələlər indiyədək xüsusi monoqrafik tədqiqat predmeti olmamışdır;
- müəllif ciddi elmi metodologiya və çox sayıda mənbədən istifadə edərək İslamda yenilənmə meylləri məsələsini geniş şəkildə açıqlayır ki, bu da dində yenilənmə prosesinin keçdiyi inkişaf mərhələlərini Türkiyə və Azərbaycanın timsalında müqayisəli şəkildə təhlil etməyə imkan verir;

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işində dində yenilənmə anlayışı nəzəri və praktiki tərəfləri ilə obyektiv, sistemli-kompleks təhlil edilmiş və müasir dövrün fəlsəfi ideya istiqamətlərində bu prosesə elmi münasibət aydınlaşdırılmışdır. Dissertasiyada bir sıra tarixi, fəlsəfi, sosial fəlsəfi və dinə aid mövzular

yer aldığından, bu sahələrdə aparılacaq elmi tədqiqat işləri üçün mənbə xarakteri dayışır. Tədqiqat işi ali məktəblərin müvafiq tədris proqramlarında, ilahiyyat elmləri, sosial fəlsəfə, fəlsəfə tarixi, dinşünaslıq, İslam tarixi və fəlsəfəsinə aid kurslarda istifadə edilə bilər. Tədqiqat materialları həm də ölkəmizdə həyata keçiriləcək dini islahatlarda, Azərbaycanın İslam ölkələri ilə münasibətlərinin elmi əsaslarının müəyyənləşdirilməsində faktik material kimi istifadə oluna bilər. Azərbaycanda müstəqillikdən sonra aparılan dini ilsahatlar, dövlət din münasibətlərinin tənzimlənməsində səmərəli mexanizmlərin qurulması ölkəmizdə dini tolerantlığın dünya ölkələri üçün nümunəvi səviyyəyə çatmasına böyük təkan vermişdir. Azərbaycanın bu sahədəki təcrübəsi geniş şəkildə əks etdirən dissertasiya işi, ölkəmizin təcrübəsindən istifadə etmək istəyən digər İslam dövlətləri və alimləri üçün elmi məlumat mənbəyi rolunu oynayacaqdır.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqatın əsas müddəaları və məzmunu ölkə daxili və xaricdə elmi məcmuələrdə dərc edilən məqalə və konfrans materiallarında əks olunmuşdur.

**Tədqiqat işinin həcmi və quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunan ədəbiyyat siyahısından ibarət olmaqla cəmi 146 səhifədən ibarəttir. Dissertasiya işində əsas olaraq 160 elmi mənbədən istifadə edilmişdir.

**Dissertasiya işinin qısa məzmunu və nəticələri.**

Dissertasiyanın "İslamda islahatçılığın nəzəri əsasları" adlanan birinci fəslində islamda yenilənmə proseslərinin nəzəri əsasları araşdırılır. Birinci fəslin birinci paraqrafında "Dini islahatların nəzəri əsasları" təhlil edilir. Tarixin axışı ilə dəyişən sosial-mədəni şərtlərə və insanın dəyişən və inkişaf edən hisslərinə dinin baxışının necə olacağı ilə əlaqəli bu problem monoteist dinlərdən politeist ənənələrə, həmçinin İslam, Xristianlıq və İudaizmdən Şərq dinlərinə qədər demək olar ki, bütün etiqad sistemlərinin həmişə məşğul olduğu önəmli problemlərdən birini təşkil etmişdir. Zamanın axışına bərabər olaraq dəyişən şəraitin insanların həyatına göstərdiyi təsirlərə qarşı dinin hansı mövqedə duracağı ilahiyyatçıların və alimlərin ən çox tədqiqat apardıqları məsələlərin başında gəlməkdədir. Ortaya çıxan yeni problemlərin və mübahisəli



məsələlərin həlli istiqamətində alimlər yeni fikirlər irəli sürərkən, bu fikirlərdən nəyin daha əsas, nəyin isə ikinci dərəcəli olduğu ilə bağlı da müxtəlif fikirlər səsləndirmişlər. Zaman keçdikcə cəmiyyətdə baş verən dəyişikliklər qarşısında dinin əsas mövhümatlarının, yoxsa zaman və məkan daxilində dəyişən şəraitin əsas alınması problemi dini ənənənin başa düşülməsi ilə bağlı konkret mövqeyi olan "yenilənmə", "təcdid", "islahat" kimi anlayışlarla ifadə edilən müəyyən yanaşma tərzlərini ortaya çıxarmışdır. Bu cərəyanlarla bağlı qiymətləndirmədə əsas olaraq iki fərqli perspektiv mənimsənilmişdir. Bunlardan birincisi, dini yenilənməni dinin ortaya çıxdığı ilk dövrlərə qayıdış kimi görən baxış tərzidir. İkincisi isə, yenilənmə prosesini zamanın tələblərinə uyğun olaraq dini dəyərlərin yeni şəraitin şərtlərinə görə yenidən şərh etməyi iddia edən baxış tərzidir.

Dinin zamanın və məkanın şərtlərinə uyğun olaraq yenidən inşa edilməsinə dayanan fikirlər, dinin tarix içində təzahür edən təşkilati strukturu ilə bağlı lokal və milli səviyyəli baxışları da bərabərində gətirmişdir. Xüsusilə, Xristianlıq və Buddizm kimi dini sistemlərin tarixi inkişafına baxdığımızda fərqli coğrafiyalarda və müxtəlif etnik kimliklər arasında dinin yenidən şərh edilib inşa edildiyinə şahid oluruq. Başlıca dini mənbələrdən hərəkətlə dini idrak yerinə milli kimlik və bununla yaxından əlaqəli ənənəyə dayanaraq, dinin yenidən şərh edilib institutlaşması, qarşımıza, məsələn, Xristian ənənəsində yüzlərlə milli kilsə təşkilatlanmasını çıxarır. Buna bənzər vəziyyəti Buddizmin tarixi inkişaf prosesində də görmək mümkündür. İslam düşüncəsində ortaya çıxan islahatçı meyillərlə Xristian islahatçılığı arasında müqayisə kriteriyaları getdikcə artmışdır. Bu müqayisələr əsas etibarı ilə (1) sosioloji və bənzəşdirici yanaşma, (2) hermenevtik yanaşma və (3) ifrat tənqidçi və ya bənzərliyi qəbul etməyən yanaşma kimi, təsnif edilə bilər.

Dinlər arasında müqayisə üsulu ilə aparılan sosioloji və bənzəşdirici yanaşmada Xristianlıq və İslam dinləri teoloji tərkibindən çox tarixi inkişaf prosesləri baxımından tədqiq edilməkdədir. Burada dinlərdə aparılan yenilənmə və islahat prosesləri arasında pozitivist perspektivi əks etdirən və olduqca sekulyar əsaslara dayanan bir

bənzəşdirmə mövcuddur.[1]

İslahat aparılan dinlər mahiyyət etibar ilə bir-birindən fərqli olduqları üçün onları müqayisə etmənin düzgün nəticələr verməyəcəyini nəzərə alaraq sosial-metodoloji müqayisəni rədd edən baxışda möcvuddur. Bu baxışa görə Xristian islahatçılığı Roma Katolik kilsəsini hədəf alan xüsusi bir hərəkat olmuşdur. Bu səbəbdən İslamda yenilənmədən bəhs edəndə bu iki dinin islahat mövzusu arasında məzmun baxımından müxtəliflik olduğu qeyd edilməkdədir.

"Dünya dinlərində islahatçılıq meyilləri" adlanan yarımfəsildə İudaizm, Xristianlıq və İslamda islahatçılıq ənənələri işıqlandırılmışdır. Qədim tarixə malik olan Xristianlıq və Yəhudilik tarixin müəyyən dövrlərində yenidən formatlanmış, təkrar vücuda gəlmiş, dövrün şərtlərinə uyğunlaşdırılmış dini mətnlərə malikdir Qərbin öz problematikası istiqamətində əlində olan tarixi mətinlərdə istədiyi yenilənməni İslama və Qurana tətbiq etməyə çalışması, hər şeydən əvvəl mahiyyət və dəyər fərqliliklərinin nəzərə alınmadığını göstərir. Bu fərqlilik Quranın qorunmasında müsəlmanlar üçün onun imanın ayrılmaz bir hissəsində özünü göstərir.

İkinci fəsil "Azərbaycanda dini islahatçılıq meyilləri" adlanır və burada XIX əsrin sonlarından müasir dövrə qədər ki, müddət ərzində Azərbaycanda dini islahatçılıq prosesləri tədqiq edilmişdir.

Birinci paraqdafda "Azərbaycanda XIX əsr - XX əsrin əvvəllərindəki ictimai-dini vəziyyət" araşdırılmışdır. XX əsrin əvvəllərində Azərbaycanda ictimai-dini mühit özünün mürəkkəb dövrünü yaşayırdı. Bu mühitin formalaşmasına bir çox proseslər öz təsirini göstərmişdir. XIX əsrdə Çar Rusiyasında baş verən iqtisadi-siyasi proseslər, o cümlədən mütləqiyyətin Azərbaycanda özünə güclü sosial dayaq formalaşdırmaq məqsədi ilə həyata keçirdiyi xristianlaşdırma siyasəti bu mühitin formalaşmasında həlledici rol oynamışdır.

"Azərbaycan maarifçilərinin fəaliyyətində dini islahatçılıq ideyaları" adlanan ikinci paraqrafda Mirzə Fətəli Axundox, Əhməd bəy

[1] Lohse B.Martin Luther`s Theology:Its Historical and Systematich Develop-ment. Edt: Roy A.Harrysville, Minneapolis: Fortress Press, 1999, s. 112.



Ağayevin islamda yenilənmə ilə bağlı ideyaları işıqlandırılmışdır.

Şərqin dinçi, heç bir sərbəst düşüncə və din pluralizminə haqq tanımayan qaranlıq mədəni mühitində Axundov ilk dəfə olaraq sekulyarizm sözünü tələffüz etmiş, dinin siyasətdən ayrı olması zərurətini irəli sürmüşdür. O, öz nəzərlərini konstitusiya quruluşunun təsdiqləndiyi Avropa ölkələrinə istiqamətləndirirdi. Beləliklə, Axundov Şərqin müsəlman mütəfəkkirləri arasında ilk olaraq konstitusionalizm ideyalarını dəstəkləyən mütəfəkkir idi.

Əhməd Ağaoğlunun yaradıcılığında xüsusi yer tutan "Üç mədəniyyət" traktatı 1920-ci ildə Maltada sürgündə ikən yazılmış, lakin ilk dəfə 1927-ci ildə İstanbulda çap olunmuşdur. "Sovet hakimiyyəti illərində Azərbaycanda dövlət və din münasibətləri" adlı üçüncü paraqrafda totalitar-kommunist sovet rejiminin islam dininə münasibəti və həyata keçirilən islahatlarla dini həyata vurulan zərbələr öz əksini tapmışdır.

Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycanda dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin hüquqi müstəvidə tənzimlənməsi, radikal təriqətlərin və missioner təşkilatların fəaliyyətinin nəzarətə götürülməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığını təmin edən, dövlət-din münasibətlərini tənzimləyən müddəalar daxil edildi. Dövlət quruculuğunun dünyəvi mahiyyət daşıması, dinin dövlətdən ayrı olması, bütün dini etiqadların qanun qarşısında bərabər sayılması, dövlət təhsil sisteminin dünyəvi xarakter daşıması, insan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd dinlərin yayılmasının və təbliğinin qadağan olması barədə müddəalar həmin sənəddə əksini tapdı. Eyni zamanda hər kəsə fikir və söz azadlığı verildiyi, ölkə vətəndaşlarının dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ olduğu bəyan edildi.

1992-ci ildə qəbul olunan, sonrakı illərdə bir sıra ciddi dəyişikliklər edilən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının

Qanunu ilə dini mərkəzlərin, idarələrin, qurumların və tədris müəssisələrinin fəaliyyəti tənzimləndi. Dini qurumalrın dövlət qeydiyyatına alınması və fəaliyyətinə xitam verilməsi qaydaları müəyyənləşdirirdi, onların mülkiyyət hüququ, istehsal və təsərrüfat fəaliyyəti, beynəlxalq əlaqələri, dinin məktəblə münasibəti, dini icmaların xeyriyyə və mədəni-maarif fəaliyyəti ilə bağlı məsələlərə aydınlıq gətirdi.

2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldıqdan sonra ölkədə dövlət-din münasibətlərində yeni bir mərhələyə qədəm qoyuldu. Dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarının tələblərinə riayət olunmasının təmin edilməsi, dini icmaların qeydiyyata alınması, qeydiyyatının ləğvi, dini qurumların və təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi səlahiyyəti həmin quruma həvalə olundu. [2]

Həmin dövrdən başlayaraq dini etiqad azadlığının təmin olunmasına, icmaların dini ayin və mərasimləri sərbəst yerinə yetirməsinə, milli-mənəvi dəyərlərin təbliğinə və tolerantlıq ənənələrinin gücləndirilməsinə diqqət daha da artırıldı. Azərbaycan hökuməti bütün dinlərin nümayəndələrinə dini ayin və mərasimləri sərbəst yerinə yetirmək üçün bərabər imkanlar yaratdı, onların fəaliyyətinə əsassız müdaxilələrin qarşısını aldı. Eyni zamanda missioner təşkilatların və radikal qruplaşmaların fəaliyyətinə nəzarət daha da gücləndirildi.

Müasir dövrdə dünya dövlətlərinin və beynəlxalq təşkilatların qarşısında duran ən başlıca vəzifələrdən biri insanlar arasında dini dözümlülüyün gücləndirilməsinin, müxtəlif din və mədəniyyətlərə mənsub insanlarm sülh və əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsidir. Müasir dövrdə dünyanın müxtəlif bölgələrində baş verən hadisələr mədəniyyətlərin müxtəlifliyini qəbul etməyən, digər din və mədəniyyətlərin nümayəndələrinin adət-ənələrinə, həyat tərzinə, əqidə və düşüncəsinə hörmətlə yanaşılmayan cəmiyyətlərdə davamlı sabitliyə və inkişafa nail olmağın qeyri-mümkün olduğunu göstərir.[3] Bu səpkidə

[2] Quluzadə M. Azərbaycanda dövlət-din münasibətləri (İslam dininin timsalında 1920-2000-ci illər), Bakı, Açıq dünya, 2002, s.265

[3] Dövlət və din jurnalı. Noyabr, 2006, s.85



qarşıdurma və münaqişələrin baş verməməsi üçün insanlarda digər din və mədəniyyətlərə qarşı dözümlülük və hörmət xüsusiyyətləri gücləndirilməlidir. Bu ənənənin gücləndirilməsi və qorunması məqsədilə Azərbaycanda bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Tam əminliklə deməyə əsas var ki, müstəqil Azərbaycan dövlətində dini tolerantlığın bərqərar olması üçün bütün tədbirlər ardıcıllıqla, məqsədyönlü şəkildə həyata keçirilir, bütün dinlərin ardıcıllarının tam bərabər hüquqlu vətəndaş kimi yaşayıb fəaliyyət göstərməsinə şərait yaradılır.

Bu gün əsas vəzifəmiz bu zəngin irsin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasıdır. Tolerantlıq Azərbaycanın əvəzsiz, dünyanın bir çox ölkələrinin həsəd apardığı milli-mənəvi sərvətidir. Bu ənənənin zəiflədilməsinə yönələn bütün cəhdlərin qarşısı dövlət tərəfindən dərhal alınır bə bundan sonra da alınacaqdır.

Üçüncü fəsil “Türkiyədə dini islahatçılıq” adlanır və burada Oslamlı dövründə və Türkiyə Respublikasının yaranmasından sonrakı mərhələdə dində yenilənmə prosesləri araşdırılmışdır.

“Osmanlı dövründə dində islahatçılıq meyilləri” adlanan paraqrafda özünü dövrün tələbləri istiqamətində yeniləyə bilməyən, elmilikdən uzaqlaşaraq funksionallığını itirən mədrəsələrin sözün əsl mənasında yenilənməyə ehtiyacı olduğu təsbit edilmişdir. Müəyyən yeniliklər və islahatlar mədrəsələrdə xüsusilə, paytaxt mədrəsələrində başlamış və vilayətlərə yayılmışdır. Sədrəzəm Mehmet Əmin Paşa zamanında mədrəsələrin islahına dair bir layihə hazırlanmış və 1854-cü ilin avqust ayında bununla bağlı geniş əhatəli konfrans təşkil edilmiş və orada mədrəsələrin problemləri müzakirə olunmuşdur.

İkinci Məşrutə dövrünün gətirdiyi azad mühit, Konya şəhərində də mədrəsələrin islahı məsələsini ortaya çıxmışdır. Məsələn, şəhər alimləri bir cəmiyyət təsis edərək mədrəsələrin islah edilməsi işinə başlamışlar. İslah-ı Mədaris-i İslamiyyə Cəmiyəti Hayriyəsi (İslam Mədrəsələrini İslah Cəmiyyəti) adı verilən bu qurum, 1909-1917-cu illərdə İstanbulda başlayan islahat prosesinə də örnək olmuşdur.[4] Bu cəmiyyətin qurduğu

[4] Gül M., Bayram A., Hakyemez O. Səlcukludan bu günə Konyanın sosial-siyasi strukturu.

Konya İslah-ı Mədaris-i İslamiyəsi öz kitabxanası, konfrans zalı, laboratoriyası, bəzi sosial mərkəzləri, nəşriyyatı və qəzeti ilə həqiqətən o dövrün son dərəcə diqqət çəkən bir təlim-təhsil müəssisəsi olmuşdur.[5] Yerli xalqın təhsil problemini aradan qaldırmaq səylərinə gözəl nümunə olan bu təşəbbüs, qısa müddətə olsa da müsbət nəticə vermişdir. Bu ali təhsil müəssisəsi kəmiyyət və keyfiyyət olaraq bir çox mütəxəssislər yetişdirmişdir. Mustafa Xeyri Əfəndinin 1914-cü ildə Şehxülislamlığa təyin edilməsindən az sonra paytaxda başlanmış mədrəsələrin islahatı tədricən ölkənin bütün ərazilərinə yayılmışdır. Həmin ildə İstanbulda Dar-ül Xilafət-i Aliyyə Mədrəsəsi açılmışdır.

3 mart 1924-cü il tarixli 430 saylı Təvhid-i Tədrisat Qanunu ilə bütün təhsil müəssisələri kimi mədrəsələr də Maarif Vəkalətinə (Təhsil Nazirliyinə) tabe edilmişdir. Bundan qısa müddət sonra isə Türkiyə Respublikasında bütün məsrəsələrin fəaliyyətinə son qoyulmuşdur.

İkinci paraqraf "Türkiyədə XX əsrin əvvəllərində dində islahatçılıq və laiklik" adlanır. Osmanlı İmperiyasının Birinci Dünya müharibəsində məğlub olması nəticəsində dövlətin Anadoluya sıxışması və bəzi bölgələrinin işğal edilməsi ilə ölkədə bir direniş hərəkatı başladılmışdır. Yeni nəsil islamçılar rəsmi tarixin əksinə olaraq, bu dirənişin Mustafa Kamal tərəfindən deyil, əslində Sultan Vəhdəddin tərəfindən başladıldığını iddia edirlər. Bu baxış islamçılar arasında geniş yayılmışdır. Bu baxışa paralel olaraq, bəzi sekularist və ya islamçı yazarlar milli mübarizənin Anadoludakı din nümayəndələri tərəfindən dəstəkləndiyi, hətta təşkilatlandığı fikrini irəli sürmüşlər. Mustafa Kamalın sultanın göstərişi ilə Anadoluya gəlməsi və milli qurtuluş hərəkatını başlatdığı hamı tərəfindən qəbul edilən ehtimallardan biridir. Sosioloq Şərif Mardin Anadoludakı istilaya qarşı təşkilatlanmanın bölgədə ki, din adamları tərəfindən həyata keçirildiyini bildirərkən, misal olaraq, İsparta kimi tarixən din adamı yetişdirən bir vilayətdə də təşkilatlanmanın İsparta Müftüsü tərəfindən reallaşdığını göstərir.[6] Türkiyə Böyük Millət Məclisinə keçirilən birinci seçkilərdə iştirak edən və məclisə daxil olan

Konya, 2003, s. 335
5 Arabacı C. Osmanlı Dövründə Konya Mədrəsələri, 1998, S.460
6 Mardin Ş. Türkiyədə din və siyasət. İstanbul: İleteşim, 1991, s.28



nümayəndələrin içində din adamları və təriqət şeyxlərinin də sayı az olmamışdır. Baxmayaraq ki, millətçilər də Milli Azadlıq Hərəkatının həm milli, həm də dini duyğularla gerçəkləşdiyini qəbul etsələr də, buradakı dini hisslərin İslamçılıq və şəriətçilik əqidəsindən meydana gələn klerikal düşüncənin məhsulu yox, sadəcə insanları bir-birinə bağlayan və milli duyğunu möhkəmləndirən vasitə olduğunu müdafiə edirlər.[7] Bu dəyərləndirmə şübhəsiz ki, xalqın səfərbərliyə tam dəstək verməsinə sübutdur. Lakin milli mübarizə məqsədinə çatmadan sonra islamçılarla hakimiyyət arasında fikir ayrılığı yarandığına görə onların milli mübarizədəki rolları diqqət mərkəzindən kənarda qalmışdır.

Mustafa Kamal geriliyini, dindən gəldiyini fikirləşən Qərb meyilli bir şəxsiyyət olsada, dinə qarşı açıq şəkildə müxalifət mövqeyi tutmamışdır. Ancaq dini siyasi sferadan uzaqlaşdırma məqsədi həmişə ön planda olmuşdur. Mustafa Kamal bir ideoloq deyildi. Buna görə də, dövlət nəzəriyyəsini inkişaf etdirəcək bir strategiyaya malik deyildi. Mətin Heperə görə, onun dövlət düşüncəsi özünün şərh etdiyi kimi tarixi hadisələrə reaksiya olaraq formalaşmışdır.[8] Respublikanın elan edilməsindən əvvəl bir jurnalistin M. Kamala "yeni qurulan dövlətin dini olacaqmı?" sualın zamanında cavab verməsinə baxmayaraq, dörd il sonra həmin məsələyə qayıdaraq onu belə şərh etmişdir: "Gəzetəçi həmsöhbətimin sualına, "hökumətin dini olmaz!" deyə bilmədim. Əksinə, "vardır əfəndim, İslam dinidir", - dedim. Lakin davamında "İslam dini hürriyəti - əfkara malikdir" cümləsi ilə cavabımı yenidən şərh etməli oldum. Demək istədim ki, hökumət fikir və vicdana riayət etmək məcburiyyətindədir. Həmsöhbətim verdiyim cavabı açıqlayıcı olaraq görmədi və sualını bu tərzdə yenidən təkrar etdi: "Yeni hökumət bir dini rəsmi din kimi qəbul edəcəkmi?" "Edəcəkmi, etməyəcəkmi bilmirəm!", - dedim və mövzunu yekunlaşdırmaq istədim. Lakin mümkün olmadı.[9]

"Cümhuriyyətin ilk dövründə islamçılıq" adlanan üçüncü paraqrafda xilafətin bir qurum olaraq ləğv edilməsindən sonra dində baş verən yenilənmə meyillərini əhatə edir.

7 Safa P. Türk inqilabına baxışlar. İstanbul: Ötükən, 1997, s.86
8 Heper M. Türkiyədə dövlətçilik ənənəsi. Ankara: Şərq-qərb, 2006. s.224
9 Cündioğlu D. Türk dilində Quran və Cumhuriyyət ideologiyası. İstanbul: Kaknüs , 2005, s.15

Xilafətin ləğv edilməsindən sonra həyata keçirilən inqilablarla siyasi sferadan uzaqlaşdırılan İslam dini bu tarixdən sonra əsas problemlərdən biri kimi Türkiyənin gündəmindən heç vaxt çıxmamışdır. Bir müddət sonra Kamalistlər kamalizmi din və Atatürkü də peyğəmbər olaraq İslama alternativ kimi təqdim etmək üçün böyük əmək sərf etmişlər.

Yeni qurulan respublikanın elitasının məqsədi bir dünyagörüşü olaraq dünyəvi respublika ideologiyasının İslamın yerini almasıydı.

1932-ci il Cumhuriyyət dövrünün ən əhəmiyyətli inqilablarından birinin gerçəkləşdiyi il olmuşdur. Bu ilin Ramazan ayında (9 yanvar-7 fevral 1932), uzun müddət hazırlığı aparılan "milli din" layihəsi əsasında dini kultların türk dilində yerinə yetirilməsi prosesi başlanmışdır. Türk dilində ibadətə 1932-ci ildə keçilməsi, bu mövzuda heç bir bünövrənin (bazis) olmaması ilə bağlıdır. Bu tarixə qədər dövlətin əlində nə türk dilinə çevrilmiş Quran, nə də Quranın təfsiri mövcud olmamışdır. Lakin bu məqsəd istiqamətində 1920-ci illərdə fəaliyyətə başlanılmış və 1925-ci ilin fevral ayında TBMM-də Diyanət İşləri Başqanlığının büdcəsi müzakirə edilərkən, başda Quran olmaq üzrə digər dini mətinlərin türk dilinə tərcümə edilərək nəşr edilməsi və bu məqsədlə büdcəyə əlavə 20 min lirə əlavə maliyyə vəsaitinin ayrılması qəbul edilmişdir.[10] Diyanət İşləri Başqanlığı, aldığı bu vəzifənin həyata keçirilməsi üçün Quranın türk dilinə tərcümə edilməsi (məali) işini Mehmet Akifə, təfsirini isə (geniş şərhini) Əlmalılı Hamdi Yazıra və böyük hədis külliyyatı olan Buxari-i Şərifin tərcüməsini də Babanzadə Əhməd Naimə maaş qarşılığında vermişdir.

1932-ci ilin Ramazan ayında M. Kamal Ankaradan İstanbula gələrək hazırlıqları böyük ölçüdə başa çatan türkcə Quran oxuma mərasimlərini şəxsən özü idarə etmişdir. Əvvəlcədən müəyyənləşdirilən səsi gözəl hafizlərin məşqlərində yer almış və onlara göstərişlər verərək İstanbulun önəmli və böyük məscidlərində bu hafizlər Quranı türk dilində oxumağa başlamışlar. Xalq Quranın türk dilində oxunmasını yaxından görə bilmək üçün kütləvi olaraq məscidlərə axışmışdır. Dövrün mətbuat

[10] Cündioğlu D. Türk dilində Quran və Cumhuriyyət ideologiyası. İstanbul: Kaknüs , 2005, s.56



orqanları bu haqda demək olar ki, hər gün böyük həyəcanla xəbərlər dərc etmiş, hətta hansı hafizin hansı məsciddə türk dilində Quran oxuyacağı xalqa çatdırılmışdır. Beləliklə, yenə M. Kamalın göstərişi ilə 18 il davam edən türk dilində əzan oxunması ilk dəfə 30 yanvar 1932-ci ildə İstanbulun Fatih Camisində oxunmuşdur. İlk türkcə əzandan sonra, bütün ölkədə tətbiq edilməsi üçün fəaliyyətə başlanılmış; Diyanət İşləri Başqanlığı əzanın yeni formatını müəyyənləşdirmiş, bəzi müğənnilər bəstə üçün vəzifələndirilmiş və Türk dilində əzan oxuma kursları açılmışdır.[11]

Yeni qurulan Türkiyə Respublikasının "milli din" layihəsi çərçivəsində diqqəti cəlb edən başqa bir praktiki addım da məscidlərin funksiyasını icra edəcək olan xalq evlərinin qurulması olmuşdur. Cündioğlu ilk baxışda bir-biri ilə əlaqəsiz kimi görünən bu və buna bənzər addımların əslində eyni məqsədə xidmət etdiyini, hər fəaliyyətin tək-tək eyni siyasi mərkəzdən planlaşdırılıb həyata keçirildiyini qeyd etməkdədir. Xalq evləri ilə bağlı Əhməd Hamdi Başar aşağıdakıları yazır: "…Bizdə dini cəmiyyətdən kənarlaşdırmaq deyil, bunun əksinə inqilabların əmrinə verərək yaşatmaq lazımdır. Məscidləri dağıdıb, tərk edib onların yerinə xalq evlərini tikmək yolu ilə bu məqsədə çatmaq mümkün olmayacaqdır".[12]

Dissertasiyanın sonunda ümumiləşdirilmiş nəticələr verilir:

1. Müasirləşmə və qloballaşma proseslərinin sürətlə davam etdiyi bir dövrdə Qərb üçün qorxulu təhdid olaraq görünən İslam fundamentalizmi İslamda islahat meyllərinin xəbərçisi olaraq qəbul edilməkdədir.

2. Sovet hakimiyyəti illərində birliyə üzv olan bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da dinin dövlət tərəfindən cəmiyyət həyatından silinməsinə çalışılmışdır. Ancaq kütləvi ateistləşdirmə siyasəti kommunistlərin gözlədikləri nəticələri verməmiş, Azərbaycan xalqı öz adət-ənənələrini, milli-mənəvi dəyərlərini qoruyub saxlaya bilmişdir.

[11] Cündioğlu D. Türk dilində Quran və Cumhuriyyət ideologiyası. İstanbul: Kaknüs, 2005, s.101

[12] Cündioğlu D. Türk dilində Quran və Cumhuriyyət ideologiyası. İstanbul: Kaknüs, 2005, s. 97-98

3. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlət-din münasibətlərində yeni bir mərhələ başladı. Bu dövrdə insanlar yeniidən öz vicdan azadlıqlarını əldə etdilər. Bu prosesdə Azərbaycan xalqının təkidli tələbi ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin rolu danılmazdır. Onun hakimiyyətə qayıtmasından qısa müddət sonra ölkədə açılan çoxsaylı dini təhsil müəssisələri, bərpa olunan tarixi məscidlər və müqəddəs ziyarətgahlar buna bariz nümunədir.

4. Müstəqil Azərbaycan Respublikası insanların dini etiqadlarına ən yüksək səviyyədə təminat vermiş, dövlət quruculuğunda və cəmiyyətin sülh və əmin-amanlıq içində birgə yaşayışının təmin edilməsində dinin proqressiv rolu nəzərə alınmışdır. Bütün bunlar onu göstərir ki, müstəqilliyini yeni əldə etmiş gənc Azərbaycan Respublikası üçün insan hüquqları, demokratik dəyərlərə əsaslanan inkişaf əsas məqsəddir. İslam dini bu inkişaf prosesinin tərkib hissələrindən biridir. Bu səbəbdən dövlətin, cəmiyyətin və dövrün tələbləri istiqamətində İslamda yenilənmə prosesi öz aktuallığını həmişə qorumaqdadır

5. Türk fikir tarixində, xüsusilə də, günümüzdə din sahəsində aparılan tədqiqatlar əsasən "dünyəvilik" və "dünyəviləşmə prosesləri" ətrafında cəmləşmişdir. Türkiyədə dində yenilənmə prosesinə nəzərət edən hakim dairələr dini sadəcə siyasi sferaya məhkum etməyə çalışmış və ya bu şəkildə görmək arzusunda olmuşlar, dinin cəmiyyət həyatı üçün sabitləşdirici və qoruyucu funksiyasını başa düşməmiş, ya da başa düşmək istəməmişlər.

6. İslam dünyasında və Türkiyədə dində yenilənmə və islahat aparmağa mane olan üç əsas dini maneə mövcuddur. Bunlardan birincisi, zəif hədislərin dini istismarı, ikincisi, təsəvvüf və təriqətçilik, üçüncüsü isə, fiqh təqlidçilərinin fiqhi Quran və şəriət kimi dəqiq və dəyişməz saymalarıdır. Hətta bu şəxslər fiqhə zidd fikir söyləyənləri dindən çıxmaqda günahlandırırlar.



**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır.**


1. Müasir dövrdə elm və dünyagörüşü. Azərbaycan Dövlət Aqrar Universiteti. ADAU-nun elmi əsərləri. Gəncə - 2011, №1. səh. 145-147
2. Elm və mədəniyyət müasirliyi. Azərbaycan Dövlət Aqrar Universiteti. ADAU-nun elmi əsərləri. Gəncə - 2011, №3. səh. 106-108
3. Türkiyə dramaturgiyasının təşəkkülü prosesində. Səhnələnən ilk əsərlər və əməyi keçən dramaturqlar. Gəncə Dövlət Universiteti. Elmi xəbərlər. Fundamental, humanitar və təbiət elmləri seriyası №3. Gəncə - 2013. səh. 120-125
4. Azərbaycanda aqrar sahibkarlığa fəlsəfi baxış. Azərbaycan Dövlət Aqrar Universiteti. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş ümumrespublika elmi-praktiki konfransın materialları (25...26 aprel 2013-cü il) Gəncə - 2013. səh. 227-229
5. XX əsrdə islamda islahatlar. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi.Gəncə Şəhər İcra Hakimiyyəti. Azərbaycan Dövlət Aqrar Universiteti. Müasir Aqrar Elm: qlobalaşma şəraitində əsrin aktual problemləri və inkişaf perspektivləri. Beynəlxalq elmi-prektiki konfrans 22-24 sentyabr 2014. Gəncə Azərbaycan. II cild. səh. 381-382
6. İslamda islahat təşəbbüsləri. Tbilisi Open University. Scientific magazine. №7, 2016. səh. 119-124
7. Türkiyədə dövlət-din münasibətlərində "Dünyəvilik" məsələsi. Geo Strategiya (aylıq ictimai-siyasi, elmi-populyar jurnal). №02 (32) Mart-Aprel 2016. səh. 65-68
8. İslamda yenilənmə meyllərinin nəzəri əsasları. Bakı Avrasiya Universiteti. Sivilizasiya.Elmi-nəzəri jurnal. 1/2016.səh. 9-16
9. Dünya dinlərində islahatçılıq meyilləri-iudaizm ənənəsi. Bakı Avrasiya Universiteti. Sivilizasiya.Elmi-nəzəri jurnal. 2/2016. səh. 9-15
10. İslamda islahat təşəbbüsləri. Azərbaycan Texnologiya Universiteti. Urbanizasiya və sənayeləşmə şəraitində biomüxtəlifliyin qorunması. Beynəlxalq elmi-praktik konfransın materialları. Gəncə- 2016. səh. 200-207
11. İslam dininin Azərbaycanda tolerantlıq ənənələrinin formalaşmasına təsirləri. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmişdir. Gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransı. Qafqaz Universiteti, 29-30 aprel 2016, Bakı, Azərbaycan. Materiallar, II kitab.səh. 1713-1715
12. İslam dininin Azərbaycanda tolerantlıq ənənələrinin formalaşmasına təsirləri. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmişdir. Gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransı. Qafqaz Universiteti, 29-30 aprel 2016, Bakı, Azərbaycan. Proqram. səh. 55
13. V.İsmayılov, S.Yusifov. Sosiologiya. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Texnologiya Universiteti. Ali məktəblər üçün dərs vəsaiti. səh. 311-316
14. Dini islahatların nəzəri əsasları. Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər jurnalı. İctimai elmlər seriyası 6 (87). səh. 178-183
15. Реформаторские тенденции в мировых религиях.Гілея: науковий вісник. Збірник наукових праць. № 125/2017, 2017 г.

**Piri Axundov**

## THE REFERENCE GUIDE IN ISLAMIC UNION IN XX CENTURY ( in case of AZERBAIJAN AND TURKEY)

## SUMMARY

In the first part of the thesis entitled "Theoretical Theories of Islamic Reform", the theoretical foundations of the renewal processes in Islam are being investigated. The first part of the first chapter focuses on the theoretical foundations of religious reform. This problem of how the religious viewpoint of the changing socio-cultural conditions and the changing and sophisticated feelings of the flow of history and of the human mind has created one of the important problems that monisteist religions have always been busy with almost all religion systems, from the politeist traditions to the religions of Islam, Christianity and Iudaism. It is at the beginning of the topics that most scholars have studied in what position religion will stand against the effects of the changing circumstances parallel to the flow of time. In the light of the emerging new problems and controversial issues, scientists expressed different opinions about what is more fundamental and what is secondary at the moment when putting forth new ideas. Over time, it has revealed certain modes of approach expressed by concepts such as "renewal" and "reform", which are the concrete positions of religious fundamentalism versus changes in society, or the question of the inheritance of changing circumstances throughout time and space. Based on these trends, two different perspectives have been adopted. First of all, religious confusion is the way back to the early times of religion. Second, it is a form of participation that claims that the renewal process can reinterpret religious values according to the requirements of new conditions.



**Пири Ахундов**

## РЕФОРМАТОРСКИЕ ТЕНДЕНЦИИ В ИСЛАМЕ В XX ВЕКЕ ( В ЛИЦЕ АЗЕРБАЙДЖАНА И ТУРЦИИ)

## РЕЗЮМЕ.

Краткое содержание и результаты диссертации рассматриваются в первой главе, называемой «Теоретические основы реформирования в исламе». Параллельно с течением времени основной темой ученых, в которой исследуется религия, является позиция, в которой религия выступает против последствий изменения условий жизни людей. В свете возникающих новых проблем и спорных вопросов ученые высказывали разные мнения о том, что является более фундаментальным и второстепенным, при выдвижении новых идей. С течением времени проблема фундаментальных концепций религии перед лицом изменений в обществе или проблема изменения времени и пространства выработала особый подход к концепции «обновления», «реформы», которые имеют конкретную позицию в понимании религиозной традиции. На основе этих тенденций были приняты две различные точки зрения. Прежде всего, религиозное обновление - это возвращение к раннему периоду появления религии. Последний – взгляд, где процесс обновления в соответствии с требованиями времени, в соответствии с новыми условиями религиозных ценностей повторно интерпретируется.

**Sifariş: 97**
**Formatı: 60x84, 1/16, əla növ kağız**
**Tiraj 100 nüsxə**

**“Ləman nəşriyyat poliqrafiya”**
**MMC-də çap edilmişdir**



**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ РУКОПИСЕЙ ИМ. ФИЗУЛИ**

**На правах рукописи**

**АХУНДОВ ПИРИ ФАРХАД ОГЛЫ**

# РЕФОРМАТОРСКИЕ ТЕНДЕНЦИИ В ИСЛАМЕ В XX ВЕКЕ ( В ЛИЦЕ АЗЕРБАЙДЖАНА И ТУРЦИИ)

Специальность: 7214.01 - История и философия религии

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по философии**

**БАКУ – 2018**